DOI: https://doi.org/10.36719/2663-4619/100/125-132

**Gülnarə Əsədullayeva**
Azərbaycan İlahiyyat İnstitutu
magistrant
gulnara.asadullayeva@gmail.com
https://orcid.org/0000-0002-6002-6814

# YENİ ƏHDİ EHTİVA EDƏN İNCİLLƏRİN YAZILMASININ MÜQAYİSƏLİ TƏHLİLİ

## Xülasə

Məqalədə Yeni Əhdə daxil olan kitablar, onların əhatə etdiyi mövzular və İncillər arasında olan fərqlər araşdırılıb. İncillərin yazılma tarixi və müasir zəmanəmizə necə çatması maraq doğuran məsələlərdəndir. Əlbəttə ki, dörd sinoptik qəbul edilən Matta, Mark, Luka ,Yəhya İncillərinin fərqli şəkildə yazılmağına baxmayaraq, onlar bir rəsmin parçaları kimi bir-birini tamamlayır və İsa peyğəmbərin həyatını, onun nəyi təbliğ etdiyini özündə əks etdirir.

Araşdırmalara görə ən qədim İncilin Mark İncili olduğu qeyd edilmişdir, sonra Matta İncili, üçüncü olan Luka İncili isə ilk iki incilə əsaslanır. Ancaq hər üç incilin Arami dilində günümüzə gəlib çatmayan bir İncilə əsaslandığı qəbul edilir. Bu səbəbdən sinoptik incillərin bir-birinə bənzəmələrinin tək səbəbi istifadə etdikləri müştərək qaynaqlardır. İsa peyğəmbərdən sonra onun tələbələri Matta, Mark, Luka və Yəhya onun yolunu davam edərək xristianlığı təbliğ etmiş və sinoptik qəbul edilən incilləri yazıya almışlar. Bu zamana qədər onların təbliğatı şifahi şəkildə idi.

Barnaba İncili kilsənin səhih saymadığı incildir və Yeni Əhdə daxil edilməyib. Bu İncil Allahın birliyini, İsanın İlah deyil Allahın qulu və rəsulu olduğunu bildirir. Bu İncildə olan məlumatlarla Qurani-Kərimdəki məlumatlarda uyğunluqlar vardır.

Səhih sayılmayan Apokrif mətnlər Yeni Əhdə daxil deyil. Ehtimal olunur ki, bu mətnlər II-III əsrdən sonra yazılıb. Kanonik hesab edilməsə də, ilk Xristian həyat və düşüncəsini əks etdirdiyinə görə Xristianlar üçün önəmli İncillər hesab olunurlar.

***Açar sözlər:*** *İncil, tarix, sinoptik incillər, apokrif, barnaba, xristianlıq*

**Gulnara Asadullayeva**
Azerbaijan Institute of Theology
master student
gulnara.asadullayeva@gmail.com
https://orcid.org/0000-0002-6002-6814

## Comparative analysis of the Bible containing the new testament

## Abstract

The article examines the differences between the Bibles included in the New Testament and the topics they cover. The history of the writing of the Bible and how they came to this day is one of the questions of interest. Of course, although the Bible of Matthew, Mark, Luke and John, taken to be the four weather forecasters, are written differently, they complement each other like pieces of a picture and reflect the life of the prophet Jesus and what he preached.

According to research, the oldest Bible is Mark, followed by Matthew, and the third is Luke, based on the first two Bibles. However, all three Bibles are believed to be based on one Aramaic Bible, which has not survived to this day. Therefore, the only reason the Synoptic Bibles' similarity is the common sources they use. After Jesus, his disciples Matthew, Mark, Luke and John followed in his footsteps and preached Christianity and wrote synoptic bibles. Until this time, their propaganda was by word of mouth.

The Bible from Barnabas is not considered an authentic church and is not included in the New Testament. This Bible proclaims the unity of God, that Jesus is not God, he is a servant and messenger of God. There are correspondences between the information in this Bible and the information in the Holy Koran.

Apocryphal texts, which are not considered authentic, are not included in the New Testament. It is believed that these texts were written after the II-III century. Although they are not considered canonical, they are considered important Bibles for Christians, as they reflect early Christian life and thought.

***Keywords:*** *bible, history, synoptic bibles, apocrypha, barnabas, christianity*

## Giriş

Xristianlıq İsa peyğəmbərin yolu ilə gedən ilk həvarilərlə başlamışdır. İlk dövrlərdə insanların inancından başqa bir şey ifadə etmirdi. Hətta bu ilk toplum daha çox Yahudi örf və adətlərinə bağlı bir toplum idi. İncil Yunan dilində "Evanqelion" yəni, "xoş xəbər", "müjdə" deməkdir. Buna görə İncil "Xoş xəbər, müjdə mənasında işlənir. Xristianlıqda "Müqəddəs Üçlük" yəni, Ata, Oğul və Müqəddəs Ruh bir tanrının dəyişik təzahürləridir.

Bundan əlavə mənbələrdə "İncil" kəlməsinin Yunan dilində "euaggelio" və ya " euangelion" olub Latın dilinə "evangelium", Fransız dilinə "evangile" olaraq keçdiyi qeyd olunur. İngilis dilində olan qarşılığı isə "godspel" kəlməsindən gələn "gospeldir". "Euaggelion" kəlməsinin Həbəş dilində olan "wangle" ifadəsi ilə Ərəb dilinə "İncil" olaraq keçdiyi iddia edilsə də bu iddia əsassızdır (Harman, 2000: 270).

Xristianlıq daha çox Pavel tərəfindən yahudilər xaricində millətlər arasında yayılmış, Romalı və bütpərəst qövmlər içində tərəfdarlar toplamışdır. Buna görə də Pavelə "Əcnəbilərin Həvarisi" deyilirdi (Mehmet Aydın, 104).

Statistikaya görə xristianların sayı 2,2 milyarddan çoxdur. Araşdırma mərkəzi "Pew Research Center" tərəfindən verilən məlumata görə, 2010-cu ildə dünya əhalisisnin 32 faizini xristianlar təşkil etmişdir (Əlizadə, 2016: 14).

Xristianlıq Roma imperatorluğunun rəsmi dini olana qədər təzyiqlər altında qalmışdır, 313-cü ildən sonra isə sərbəst şəkildə inkişaf etmişdir. Bu arada çoxlu sayda İncil və məzhəblər yayılmışdır (Mehmet Aydın, 103).

İncillərdə "Xristian" və "Xristianlıq" kimi terminlər işlənmir. Bu terminlər ilk dəfə İsa peyğəmbərdən 20-30 il sonra Antakyada istifadə olunmuşdur. Bu incillər İsa peyğəmbərin həyat hekayəsi kitabıdır (Tümer, Küçük, 1993: 233).

İbri dilində Məsih sözünün Yunan dilindən tərcüməsi "Xristos" deməkdir (Aydın, 103).

Bundan irəli gələrək ümumi Yahudi düşüncəsinə görə Məsih İsraili qurtarmaq üçün tanrı tərəfindən göndərilmiş insandır. İkinci əsrin əvvəllərində yaşamış bir Xristian bidətçisi olan Markionun görüşünə görə dünyanı qurtarmaq üçün göydən enmiş olan tanrıdır. Yeni Xristianlığı qəbul edənlərə görə İsa Məryəmdən doğulmuş ilahi bir varlıqdır.

Xristian ilahiyyatının üçüncü ünsürü Müqəddəs Ruhdur. Ancaq IV əsrdə Müqəddəs Ruh oğul ilə eyni mahiyyətdən olmaqla bərabər ayrı bir ünsür halına gəlmişdir. Xristian ilahiyyatına görə Ata nə yaradılmış nə də doğulmuşdur. Müqəddəs Ruh isə Atadan və Oğuldan ayrılmışdır. Ata,Oğul, Müqəddəs Ruh tək ünsürdə toplanmış ünsürdür. Hamısı da əbədidir. Aralarında əlaqə vardır. Bunlar Xristianlığın "təslisin" təşkil edir (Aydın, 104).

İncillərdə işlənən Xristian ilahiyyatının ən önəmli ünsürlərindən biri də kəffarət problemidir. Bu mövzunun incillərdə çox açıq olmasına baxmayaraq, bu mövzuya canlılıq gətirən Pavel olmuşdur. Pavelə görə Adəm peyğəmbərin işlətdiyi günaha görə dünya günaha düçar olmuşdur. Adəmin işlətdiyi xətadan dolayı bütün bəşəriyyət bu günahın təsiri altındadır. Bəşəriyyəti bu günahdan təmizləmək üçün İsa könüllü olaraq özünü fəda etmiş günahkar insanlar uğrunda can vermişdir. Bu eyni zamanda xristian antropologiyasının əsasını təşkil edir (Əlizadə, 2007: 16-17).

Kəffarət nəzəriyyəsinə görə İsa Allahın (c) oğludur və Allahın (c) əmri ilə göydən enərək insanları qurtarmaq üçün onlara bənzər hala gəlmişdir. Çünki Xristian inancına görə insaniyət qaçılmaz bir qədərin təsiri altında idi.

Mövzunu fəlsəfi yöndən araşdırmaq məqsədimiz olmasa da bu məqamda xırda bir nüansa diqqət edək. Təfəkkürün bütün formalarını əhatə edən bir sistem kimi fəlsəfə ideyası və mənəvi həyatın bütün sahələri Xristian dünyasına antik dövrdən miras qalmışdır (Zenkovskiy, 2010: 12).

Məsələn mənbələrdə Xristianlıq ideologiyasının qaynaqlarının təkcə müxtəlif dinlər deyil, həm də bəzi fəlsəfi və idealist təlimlər olduğu qeyd edilir.. Xüsusilə, İsgəndəriyyəli Filo və Seneka kimi antik filosofların xristianlığa böyük təsiri olmuşdur. Filonun təlimlərindən xristianlıq Tanrı ilə dünya arasında vasitəçi kimi ilahi Logos ideyasını çıxardı. O, Tanrını tamamilə mükəmməl hesab edirdi. Seneka isə sərt monoteizm ideyasının əsasını qoymuşdur (Kruglov, 2015: 131-132).

Xristianlıq tərəfindən Yeni Əhd və bu Yeni Əhddəki məktublar miladdan sonra 150-500-cü illər arasında formalaşmışdır. 1546-cı ildə Trente Məclisində müqəddəs kitablar mövzusu yenidən gündəmə gəlmişdir. Xalqın əksəriyyətində mövcud olanlar xaricində digərləri qəbul edilməmişdir.

Yeni Əhddə 27 kitab yer alır. Bunlar: "Matta"; "Mark"; "Luka"; "Yəhya"; "Həvarilərin işləri"; "Paulun Romalılara məktubu" on altı fəsildən ibarət olub Tanrının təcəlli etməsi, şəriət ilə iman arasındakı əlaqə və vəftiz kimi mövzuları ehtiva edir; "Paulun Korinflilərə birinci məktubu"on altı fəsildən ibarət olub həqiqi hikmətdən, nigahdan, bütpərəstlərin qurbanından, qiyamətlə əlaqəli mövzuları əhatə edir; "Paulun Korinflilərə ikinci məktubu" on üç fəsildən ibarətdir və imanla bağlı məsələləri ehtiva edir; "Paulun Qalatyalılara məktubu" altı fəsildən ibarətdir, Paulun özü ilə əlaqəli məsələləri ehtiva edir; "Paulun Efeslilərə məktubu" altı fəsildən ibarətdi, Xristianların həyatı və əxlaq haqqında məlumatlar ehtiva olunur; "Paulun Filipilərə məktubu" dörd fəsildən ibarət olub İsanın gəlişi və insanın İsanın yolunu təqib etməsinin zəruri olduğu bildirilir; "Paulun Kolosselilərə məktubu"dörd fəsildən ibarətdir və burada insanın ilahiliyi ilə əlaqəli mövzunu ehtiva edir; " Paulun Saloniklilərə birinci məktubu" beş fəsildən ibarət olub İsanın ikinci gəlişi ilə əlaqəli müvafiq məsələləri əhatə edir; "Paulun Saloniklilərə ikinci məktubu" beş fəsildən ibarət olub İsanın dünyaya ikinci gəlişinin dərhal baş verməyəcəyi, əvvəl Dəccalın gələcəyi sonra İsanın gələrək onunla mübarizə aparacağı qeyd olunmuşdur; "Paulun Timoteyə birinci məktubu" altı fəsildən ibarətdir və burada İsanın Tanrı ilə insan arasında yeganə vasitə olduğu bildirilir; "Paulun Timoteyə ikinci məktubu" dörd fəsildən ibarətdir, nəsihət və tövsiyələri ehtiva edir; "Paulun Titə məktubu" üç fəsildən ibarətdir imanın və şəxsiyyətin formalaşdırılması kimi məsələləri ehtiva edir; "Paulun Filimona məktubu" bir fəsildən ibarətdir və Filimonun evdən qaçan bir köləsi haqqında məlumatlardan ibarətdir;" İbranilərə məktub" on üç fəsildən ibarətdir. Kim tərəfindən yazıldığı bəlli deyil. İsanın Yəhudilərə tanıdılması məqsədi ilə yazılmışdır, burada İsanın Tanrının oğlu, əzəli və əbədi kahin, qurban olması inancı kimi məsələləri ehtiva edir; "Yaqubun məktubu" beş fəsildən ibarətdir. Yeni Əhddə iki Yaqub adı keçir ki, bunlardan biri Yəhyanın qardaşı digəri İsanın qohumu olan Yaqubdur. O İsadan sonrakı dövrdə Qüdsdəki Xristianların rəhbəri olmuşdur. Bu məktubun Yaqub tərəfindən yazıldığı və imanın yaxşı əməllərlə bəzədilməli olduğunun vacibliyi kimi məsələləri ehtiva edir; "Peterin birinci məktubu" dörd fəsildən ibarətdi. İsanın tələbəsi olan Peter bu məktubu Qara Dəniz, Ankara, Qalatiyada, Kayseridə, Efesdə yaşayan xristianlara yazmışdır. Bu məktub nəsihət şəklində olub imanın möhkəmləndirilməsi, insanların bir-birləri və Tanrı qarşısında olan vəzifələri, həmçinin İsanın çəkdiyi əziyyətləri ehtiva edir; "Peterin ikinci məktubu" tam olaraq kimə yazıldığı bilinmir və birinci məktubda olan mövzuları əhatə edir; "Yəhyanın birinci məktubu" beş fəsildən ibarətdir.

Bu məktub Xristianlar üçün çox böyük əhəmiyyət kəsb edir. Burada "Məsih düşməni" kimi adlandırılan dindən dönənlərlə əlaqəli məlumatlar yer alır. Həmçinin, günah anlayışı və günahla mübarizə mövzularını ehtiva edir; "Yəhyanın ikinci məktubu" üç fəsildən ibarətdir. Burada iman məsələsi və Məsihə qarşı düşmənçiliyin artdığı barədə Xristianlara məlumat verilir; "Yəhyanın üçüncü məktubu" üç babdan ibarətdir. Xristianlara sahib çıxan, bu dini öyrətməyə çalışan Gayus adlı bir şəxs haqqında məlumatları əhatə edir; "Yəhudanın məktubu" bir babdan ibarət olub Yəhudilikdən Xristianlığa keçənlər üçün nəsihətləri ehtiva edir; "Yəhyaya nazil olan vəhy" kitabı

iyirmi iki fəsildən ibarət olub Yəhya tərəfindən 94-95-ci illərdə Patmos adasında sürgündə olduğu dövrdə yazılmışdır.

Bu kitabda dürüst və imanlı olanların dini inkar edənlərə qalib gələcəyi, Tanrının şərə qalib gəlib qiyamətdə bütün insanları xilas edəcəyi və gələcəyə dair bir çox məsələləri ehtiva edir. Xristian inancına görə İncil ilə Vəhy bitmiş hesab olunur. Onlara görə həvarilərin ölümündən sonra heç bir peyğəmbər gəlməmiş və Tanrı adına danışmamışdır. Çünki Xristianlara görə İsa ən mükəmməl və ən uca Vəhydir (Küçük; Tümer; Küçük, 2010: 382-385).

Beləliklə, Paula, Yaquba, Peterə, Yəhyaya aid məktublar üç başlıq altında araşdırılır:

- Paulun məktubları.
- Universal məktublar.
- Vəhy kitabı. Yə ya buna Appokalips kitabı da deyilir (Aydın, 117-118).

Xristianlığın müqəddəs kitabında bu məktubların önəmli yeri vardır. Çünki bu məktublar Xristianlığı başa düşmək və təfsir etmək üçün əhəmiyyətlidir.

Yeni Əhddə İncillərdən sonra "Paulun məktubları" əsas yeri təşkil edir. Bu məktublar müxtəlif səbəblər və müxtəlif icmalara yazılıb, daha sonra isə Yeni Əhddə yer almışdır.

**1. İncilin mövzuları.**

İncildə işlənən mövzular ümumilikdə iki yerə ayrılır. Biri dünya ilə əlaqəli olanlar, digəri axirətlə əlaqəli olanlar. Dünya ilə əlaqəli mövzular İsanın həvarilərinin haqqındadır. İsanın bir peyğəmbər olaraq ortaya çıxışı, həvarilərlə qarşılaşması, hadisələrlə əlaqəli olaraq göstərdiyi möcüzələr bura aiddir.

Dünya ilə əlaqəli mövzuların işləndiyi mövzularda insanların dünyada etməli və etməməli olduğu işlər, qarşılıqlı davranışlar aiddir. Bu mövzuları ilə İncil insanlara həyatda yaşama yolunu göstərir (Dinler tarihi ansiklopedisi, 1976: 266-267).

Axirət ilə əlaqəli olan mövzular isə daha çoxdur. İnsanın yaradılışından sorğu-sual olunduğu günə qədər bütün hadisələr nəzərə alınır. Bu mövzulara daha çox ibadət etmə, insanla tanrının əlaqələri, müqəddəslik, ruh, tanrı, mükafat, cəza, Axirətdə insanı nələrin gözlədiyi, mələklər, şeytan və bu kimi məsələlər yer alır (Dinler tarihi ansiklopedisi, 1976: 267).

**1. Sinoptik İncillər.**

İsanın mesajları xəbər verdiyi dilin Aramicə olduğu qəbul edilir. Dörd İncilin ən qədim nüsxələri isə Yunanca yazılmışdır. Dörd İncildən Matta, Mark və Luka incillərinə Sinoptik incillər adı verilmişdir. Çünki bu üç incilin mətnlərində çox bənzərliklər vardır. İncili araşdıran tarixçilər Luka və Mattanın istifadə etdiyi 107 hissənin Mark incilindən olmadığını qəbul edirlər (Aydın, 119)

Mənbələrdə İsanın miladdan əvvəl 6 və ya 4-cü ildə dünyaya gəldiyi, 28 yaşında vəftiz olunduğu, xidmətə 30 yaşında başlaması və 33 yaşında çarmıxa çəkilməsi nəzərə alınarsa günümüzə çatan ən qədim İncilin İsadan ən az 30 il sonra yazıldığı məlum olur (Küçük, Tümer, Küçük, 2010: 381).

Xristianlar sadəcə dörd incili qəbul edirlər. Matta, Mark, Luka, Yəhya. Bunların xaricindəki İncilllər apokrif, yəni uydurma incillər hesab olunur. Yeni Əhddə bir incildən bəhs edilməsinə rəğmən Xistianlar tək incilə deyil dörd incilə inanırlar. İncillərdə qeyd olunanlar fərqli olsa da, mahiyyət etibarı ilə İsanın kim olduğu və Allahın İsa vasitəsi ilə şagirdlərinə nələr gətirdiyi ilə bağlı həmfikirdirlər.

İncillər ilk dövrlərdə yazıya alınmayıb yalnız şifahi şəkildə nəql olunub. Xristianlığa görə İncillərin formalaşdırılmasında Müqəddəs Ruhun rolu böyük olmuşdur. Çünki bu kitabların Müqəddəs Ruhdan ilhamlanaraq qələmə alındığını qəbul edirlər.

Bəzi mənbələrə görə Sinoptik İncillərin 60-85-ci illər arasında yazıldığı düşünülür. Dördüncü İncil olan "Yəhya"isə 100-cü ildən sonra yazılıb və ilk üç İncilin şərhini ehtiva edir (Küçük, Tümer, Küçük, 2010: 381).

**2.1. Matta İncili.**

Fələstinli bir Yəhudi olan Matta kolleksioner və gömrük məmuru idi. İsanın tələbəsi olmuşdur və Xristianlığı yaymaq üçün çalışmışdır. Yeni Əhdin birinci kitabını "Matta İncili" təşkil edir. Bəzi

Xristian alimləri Mattanın İncilini Fələstində yaşayan və yahudilikdən xristianlığa gələn xristianlar üçün yazdığını qəbul edirlər (Aydın, 119).

Bu incil iyirmi səkkiz babdan ibarətdir. İsanın dünyaya gəlməsi, özünü xalqa tanıtması, həvarilərini İncili tanıtmağı üçün göndərməsi kimi məsələlər öz əksini tapmışdır (Küçük, Tümer, Küçük, 2010: 381-382).

Kanonik incillərdən birincisi olan "Matta" İncilini yazıya alanın həvari Matta olduğu qeyd edilsə də bəzi mənbələrdə bu incilin müəllifinin bilinmədiyi qeyd olunur. II əsrin birinci yarısında yaşayan Hierapolis yepiskopu Papiasın "Matta İsanın sözlərini İbri dilində yazdı və hər kəs gücü çatdığı qədər bunu tərcümə edir" ifadəsinə əsaslanaraq ən qədim kilsə mədəniyyəti və Yunanca yazılmış "Matta" İncilinin Fələstinli Yəhudi Matta-Levi tərəfindən yazıldığına misaldır. Elmi tənqidi iddialara görə Matta bu incili Yunan dilində yazmayıb, İsanın sözlərini onun danışıq dili olan Arami dilində yazmışdır. Həvari Mattaya aid olan bu mətin Yunan dilinə tərcümə olunmuş,ona əlavələr olunmuş və hal-hazırda bildiyimiz "Matta" incili bu şəkildə dövrümüzə çatmışdır. Bundan əlavə Matta incili yazarkən həvari olmayan Markdan qeydlər aldığı da iddia edilir. Ancaq bu iddia əsassızdır. Matta İncilinin Fələstində yaşayan Yəhudilər üçün Antakyada yazıldığına görə burada davamlı olaraq "Əhdi Ətiqə" və Musa şəriətinə müraciətləri görə bilərik. İncili hansı dildə yazılmağına gəlincə Mattanın həm Arami həm də Yunan dilində yazılan İncillərin müəllifi olduğu qeyd edilir (Harman, 2000: 271).

Matta bu kitabında İsanın vəftiz olunması,onun şeytan tərəfindən sınağa çəkilməsi, möcüzələri barədə məlumat verir. İsanın ölümü və yenidən dirilməyi barədə olan məlumatlara gəlincə, onun son sözlərini "Yeni Əhdin" 26 -cı fəslinin 28-29 cu ayələrində bu şəkildə təsvir edir: " Bu, Əhdin bağlanması və günahların bağışlanması üçün çoxları uğrunda axıdılan Mənim qanımdır. Mən sizə deyirəm: Atamın Padşahlığında sizinlə birlikdə təzəsini içəcəyim günə qədər üzüm ağacının bu məhsulundan əsla içməyəcəyəm".

Kitabı yazmaqda məqsədi İsanın gözlənilən peyğəmbər olduğunu Yahudilərə izah etmək istəməsidir. Əsasən İsanın həyatı, ölümü və diriləcəyi barədə məlumat vermişdir. Bu kitabın birinci ayəsində İsanaın soykökünün İbrahim Peyğəmbərə çatdığını da görə bilərik.

**2.2. Mark İncili.**

Yeni Əhdin ikinci kitabı "Mark İncilidir". Kitabın müəllifi olan Mark həvari deyildi. Ancaq Yeni Əhdə görə Pavel və Peterin köməkçisi idi. Yeni Əhdi araşdıranlar bu incilin daha çox Yəhudi olmayan xristianlar üçün yazıldığını söyləyirlər. Mark İsa peyğəmbərin dediklərindən çox, etdiklərinin üzərində dayanmışdır (Aydın, 120).

Mənbələrdə digər adı Yəhya olan Mark xristian inancına görə Peterin şagirdi və tərcüməçisi, Barnabanın isə qardaşı oğlu idi. Orijinal dili Yunanca olan kanonik incillər arasında həm ən qısa olan, bəzi iddialara görə həm də ilk yazılan İncildir. Məzmun baxımından "Matta" İncilinə çox yaxındır və hadisələri daha qısa şəkildə qeyd etmişdir. Son fəslinin sonradan əlavə olunduğu iddia edilir. Mətn tənqidi araşdırmalarına görə, "Mark" İncili əslində Mark tərəfindən nəql olunsa da, bu, əsasən Peterin İncilidir. "Mark" İncili "Matta" və "Luka" ilə müqayisə edildikdə bizi onun mənbəyi olan ilk İncil haqqında düşünməyə vadar edir və tədqiqatçılar onu Urmarkus və ya Proto-Markus adlandırırlar (Harman, 2000: 272).

Kitabın müəllifinin Mark yoxsa Pter olduğu mübahisələrə səbəb olsa da tarixçi Evseybusun nəzərinə görə kitabın müəllifi Markdır. İddiasını bu şəkldə əsaslandırır ki, kitab İtaliyada yazılıb, çünki Pavel və Peter 50-ci illərin sonu və 60-cı illərin əvvəllərində Romada Müjdəni təbliğ edirdilər. Markın Yəhudi ənənələrini açıqlamağa ehtiyac hiss etməsi də kitabın İtaliyada yazılma iddialarına uyğundur. Mark Peterin tərcüməçisi olduğuna görə onun dediyi hər bir kəlməni qeyd etmişdir (Nelson, 2000: 37).

İncil on altı fəsildən ibarətdir. Burada Romalılara xitabən İsanın həyatı, Qalileya, Yəhudiyyə və Qüdsdəki təbliğatları, ölümü və dirilməsi əks olunmuşdur (Küçük; Tümer; Küçük, 2010: 382).

Bu kitabda İsa Tanrının oğlu, Yahudilərin gözlədiyi xilaskar kimi tanıdılır. "Mark"İncilinin 10-cu fəslinin 45-ci ayəsində insanların günahlarının bağışlanmasına görə İsanın öz canını fəda edərək

onlara xidməti üstün tutduğunu görə bilərik " Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün Öz canını fidyə versin".

İsanın şəfa verməsi, təlimləri, insanların günahlarının bağışlanması kitabın mövzularını ehtiva edir. Son fəsillərdə İsanın çarmıxa çəkilməsi və dirilməsi təsvir edilir.

**2.3. Luka İncili.**

Luka Suriyada anadan olmuşdur. İxtisasca həkim idi. Pavel onu "Həkim Luka" deyə adlandırırdı. Onlar yaxın dost idilər. Luka savadlı və əxalqlı bir insan idi. Xristian inancına görə İncil II əsrdə yazılmışdır. Luka həm şifahi, həm də yazılı qaynaqlardan istifadə etmişdir. Yazılı qaynaqlar arasında "Mark" incili, "Matta"incilinin Arami dilində olan ilk nüsxəsi və müxtəlif incillər vardır. Luka həmçinin Pavelin də fikirlərindən istifadə etmişdir. İncili yəhudi əsilli olmayan xristianlar üçün yazmışdır (Harman, 2000: 272).

"Luka İncili" İsanın missiyasını ehtiva edir. Burada İsanın həyata keçirməli olduğu missiyaya əhəmiyyət verilir (Aydın, 120).

İyirmi dörd babdan ibarət olan bu İncil ümumilikdə Yəhudi olmayanlara Tanrının oğlu İsanın bütün İnsanların qurtarıcısı və həyatın qaynağı olaraq tanıdılması şəklində izah edilir (Küçük, Tümer, Küçük, 2010: 382).

Kitabda İsanın həyatı, onun İsrailin və bəşəriyyətin xilaskarı olduğu təsvir olunur. İsanın dünyaya gəlməsi, vəftiz olunması, günahkar qadını bağışlaması, ölüb yenidən diriləcəyi barədə məlumatlar, İsanın görünüşünü dəyişərək Musa və İlyasla söhbəti kitabın ehtiva etdiyi mövzulardır.

Vəftizçi Yəhyanın dünyaya gəlişinin Zəkəriyyə peyğəmbərə Tanrı tərəfindən bir lütf olduğunu Kitabın birinci fəsli 73-cü ayəsindən görə bilərik: **"Atamız İbrahimə and içdiyi kimi bizə elə güc verdi ki"** (Müqəddəs Kitab, 1207). Buradan İbrahim peyğəmbərin xristian inancı üçün əhəmiyyətli olduğu, onun peyğəmbərlərin atası olduğu nəticəsinə gələ bilərik.

**2.4. Yəhyanın İncili.**

Miladdan sonra 65-98-ci illər arası yazıldığı qəbul edilir. 1947-ci ildə Qumranda tapılmış vərəqlərlə "Yəhya İncili" arasında əlaqə olduğu görülür. "Yəhya İncili" dörd incil arasında ən mistik olan incildir. Hadisələr qarışıq simvollarla izah olunmağa çalışılmışdır. Yəhya əsasən İsanın möcüzələrinə daha çox üstünlük vermişdir (Aydın, 120).

Tarixi mənbələrə görə 70-ci illərdə Qüdsün Romalı işğalçılar tərəfindən təqibi nəticəsində Fələstindən Efesə getmi, İmperator Dominatus zamanında Patmosa sürgün edilmiş, İnperator Nervanın dövründa Efesə qayıdaraq incili bu dövrda yazmışdır. Ümumilikdə "Yəhya" incilinin I əsrin sonlarında yazıldığı qəbul edilir. Bu incil digər "Sinoptik İncillər" dən fərqlidir. Hekayələrin seçimi sıralaması, coğrafi və xronoloji məlumatlar, hətta dini baxış nəzərindən digərlərindən fərqlənir. XVIII əsrdən sonra "Yəhya" incilinin müəllifinin həvari Yəhya deyil onun şagirdi və ya başqa Yəhya olduğu iddiası irəli sürülmüşdür. Sinoptik İncillər İsa peyğəmbərin Cəlilə bölgəsindəki təbliğinə üstünlük verir, lakin "Yəhya" İncilində isə Qüdsdəki fəaliyyəti təsvir olunur.Vəftiz, İsanın şeytan tərəfindən günaha təhrik edilməsi, şəklini dəyişməsi kimi mövzular bu incildə yoxdur. İsanın risalət müddəti isə digər "Sinoptik" incillərdə bir il, "Yəhya" incilində isə üç ilə yaxın davam etmişdir (Harman, 2000: 272).

Bəzi mənbələrdə isə "Yəhya" incilinin müəllifi İsa peyğəmbərin sevimli şagirdlərindən olan həvari Yəhyanın olduğu qeyd edilir. Çünki, Yeni Əhdin birinci kitabı olan "Matta" incilinin 17-ci fəslinin birinci ayəsində Yəhya İsa peyğəmbərin şagirdi kimi təsvir olunur. Ayədə Peter, Yaqub və Yəhyanın adları qeyd olunduğunu görürük: **"Altı gündən sonra İsa Özü ilə yalnız Peter, Yaqub və qardaşı Yəhyanı götürüb hündür bir dağa çıxdı".**

Yəqub "Həvarilərin İşləri" kitabının 12-ci fəslinin 2-ci ayəsində qeyd edildiyi kimi şəhid edildiyi üçün, Peter isə 21-ci fəslin 7-ci ayəsinə görə "Yəhya" incilinin müəllifləri ola bilməzdi. Bu səbəbdən sevimli şagird deyildikdə Yəhya nəzərdə tutulur. Kitabın əsas məqsədi İsanın kimliyini açıqlamaqdır. İsaya "Söz", "Tanrı oğlu", "Məsih", "İnsanoğlu" kimi adlar verilmişdir. Bu kitabda İsa Tanrıya 109 dəfə ata deyə müraciət edir. 23 dəfə "Məni göndərən"deyə qeyd etmişdir (Nelson, 2000, 99).

Yəhya tərəfindən yazılan bu incil iyirmi bir babdan ibarətdir. Burada İsanın həyatı, ölümü və dirilişi haqqında məlumamatalar qeyd olunub (Küçük, Tümer, Alparslan Küçük, 2010: 382).

**2.5. Həvarilərin işləri.**

Yeni Əhddə İncillərdən sonra yer alan önəmli bir kitab da "Həvarilərin İşləri"dir. Xristian ilahiyyatçıları bu kitabın Luka tərəfindən yazıldığını qeyd edirlər. Bu kitab xristian cəmiyyətinin necə yarandığını izah edir. Buna görə burada təməl teoloji mövzular yer alır. Tanrı Ruhunun Xristian cəmiyyətini necə formalaşdırmağı və istiqmətləndirməyi Lukanın bu kitabda yazdığı təməl fikirdir (Aydın, 117-120).

Digər məlumatlara görə isə bu İncili kimin yazdığı bəlli deyil. Lakin üslub baxımından Luka İncili ilə oxşardır. Bu baxımdan "Həvarilərin işləri" İncilinin Luka tərəfindən yazıldığı ehtimal olunur. İyirmi səkkiz babdan ibarət olan kitabda Xristianlığın yayılması və Xristianların həyat tərzi haqqında məlumatlar vardır (Abdurrahman Küçük, Günay Tümer, Mehmet Alparslan Küçük, 2010: 382).

**2. Apokrif mətnlər.**

Kanonik və ya səhih sayılmayan mətnlər apokrif əsərlər kimi dəyərləndirilir. Apokrif mətnlər arasında Tomas İncili, Yaqub İncili, Filip İncili, Misirlilər İncili, Məryəm İncili, Həqiqət İncili, Yahuda İncili və buna bənzər onlarla incil mətnləri vardır. Bunların bir qismi erkən dövrlərə aiddir. Əslləri itirilən bu incil mətnlərinin bir hissəsi "Kilsə ataları" adlandırılan erkən dövr xristian yazarlarının bidətçi əsərlərində hissələr şəklində qeyd edilmişdir. Bir qismi isə aparılan arxeoloji araşdırmalar nəticəsində əldə edilmişdir. Bunların arasında 1940-cı illərdə Nec Hammadi bölgəsində əlli dörd kitabdan ibarət olan Nec Hammadi kitabxanasında təsadüfən tapılan Qipti dilində olan beş bibliya mətni və orijinal tərcüməsi olan Yahuda İncilini misal göstərə bilərik. İncil mətinlərindən başqa çeşidli apokaliptik, məktublar və buna bənzər materiallar da apokrif mətinlər hesab olunur (Şinasi Gündüz, 2015: 60).

**3. Barnaba İncili.**

Mübahisə obyekti olan incillərdən biri də Barnaba İncilidir. XX əsrin birinci yarısında iki İngilis alimi Londsdale və Laura Raggın tərcümələrindən sonra Barnaba incili mübahisələrə səbəb olmuşdur. Bununla bağlı həm Xristian həm də İslam dünyasında bu mövzuda əsərlər qələmə alınmışdır. Xristianlar bu incili apokrif qəbul edir. Çünki bu əsərin XVI əsrin sonuna yaxın yazıldığını iddia edirlər. Müsəlman alimlər isə Barnaba incilindəki İslamiyyətlə uyğunluq təşkil edən hissələri dəlil gətirərək onun haqq İncil ola biləcəyini iddia edirlər (Mehmet Aydın, 1995: 107).

Xristian qaynaqları Barnaba İncilini İslamı qəbul edən bir İspan şəxsin yazdığını söyləyirlər. Bu şəxsin Tra Marino ola biləcəyini qeyd ediblər. Barnaba İncilinin əlyazması Vyana kitabxanasında saxlanılır. Bu əlyazma İtalyancadır. Belə görünür ki, həqiqi nüsxə itirilib. Həmən əlyazma tərcüməsi ilə birlikdə 1977-ci ildə Parisdə nəşr olunmuşdur (Aydın, 1995: 108).

Barnaba İncilinin İslamla uyğun gələn önəmli məqamları bunlardır:

- Çarmıxa çəkilən İsa deyil başqa biridir.
- Məhəmməd peyğəmbərin gəlişi barədə İncildə məlumatlar verilmişdir.
- "Təslis", yəni "Ata, Oğul, Müqəddəs Ruh" inancı.

Bəzi Xristian yazıçıları Barnaba İncilinin İslam dininə yeni qəbul etmiş biri tərəfindən yazıldığı qənaətindədir. Təlimləri rəsmi incillərin təlimlərinə uyğun gəlmədiyi üçün kilsə bu incili də apokrif incillər olaraq qəbul etmişdir (Aydın, 1995: 108).

Bu kitablardan başqa bəziləri tərəfindən apokrif qəbul edilən əsərlər vardır ki, misal olaraq bunları göstərmək olar: "Peterin işləri", "Paulun işləri", "Andreasın İşləri", "Yəhyanın işləri".

Bu əsərlərin miladdan sonra ikinci əsrin sonunda yazıldığı təxmin edilir. Bundan başqa "Tomasın İşləri" əsərinin üçüncü əsrdə yazıldığı söylənilir. Burada Tomasın həyatı haqqında məlumat verilir. "Paul və Teklenin işləri" əsərinin 160-180-ci illər arasında Qərbi Anadoluda yazıldığı təxmin edilir. Bu əsərdə Paulun səyahətləri, həmçinin Konyada yaşayan Tekle adlı bir qadının həyatından bəhs edilir (Aydın, 1995: 108-109).

## Nəticə

Qərb mədəniyyətinin formalaşmasına təsir göstərmiş Xristianlıq dini yer üzündə ardıcıllarının sayına görə birinci yeri tutur. Tanrının üç sifətdən, yəni Ata, Oğul və Müqəddəs Ruhdan ibarət olması, İsa Məsihin Allahın oğlu olaraq bəşəriyyətin xilası üçün göndərilməsi, xaça çəkildikdən sonra dirilməsi və qeybə çəkilməsi haqqında dini təlimlər Xristianlığın əsasını təşkil edir. Xristianlığın müqəddəs kitabı Əhdi-Ətiq və Əhdi-Cədiddən ibarət olan Bibliyadır. Lakin Xristianlar üçün Əhdi-Cədid daha əhəmiyyətlidir. Dörd kanonik, yəni kilsə tərəfindən tanınmış incillərin müəllifləri İsa Məsihin şagirdləri Matta, Mark, Luka və Yəhya hesab olunur.

Sinoptik incillərin bir-birinə bənzəmələrinin tək səbəbi istifadə etdikləri müştərək qaynaqlardır. Həm Luka həm də Matta hər ikisi Mark İncilinin mətnini qaynaq olaraq istifadə etmişdir. İncil yazan hər həvari topladığı materialları İncilində dəyərləndirmiş və İncillər arasında olan fərqlər belə yaranmışdır.

Dörd incildə Tanrının birliyi, ucalığı, sonsuz gücü vəsf olunub. Ümumilikdə xristianlıqda Müqəddəs Kitab ilahi vəhyin məhsuludur. Müasir dövrümüzə çatan incillər fərqli dövrlərdə və məkanlarda müxtəlif insanlara xitabən yazılmışdır.

Yeni Əhddə dörd İncil, iyirmi bir məktub, Həvarilərin işləri və Vəhy daxildir. Yazılma tarixinə gəlincə bəzi mənbələr bu kitabların II-III əsrdən sonra Yunan dilində yazıldığını qeyd edir. İddialara görə I əsrin ikinci yarsı ilə II əsrin birinci yarısında yazılması ehtimal olunur. Ümumilikdə sinoptik incillərin 65-90- cı illər arasında, “Yəhya” incilinin I əsrin sonuna doğru yazıldığı qəbul edilir.

Yeni Əhdə daxil olan bu kitabların həvarilərdən gəldiyi və səhih olduğunu qəbul edənlərlə yanaşı, bu kitabları qəbul etməyərək İncillərin İsaya aid olmadığını, sonradan və ehtiyaca görə yazıldığını iddia edənlər vardır. Bu səbəbdən Kilsə tərəfindən qəbul edilməyən Apokrif kitablar vardır ki, onlar Yeni Əhdə daxil edilməyib.

Həmçinin Barnaba İncili də Qurani-Kərimlə bəzi mövzularda oxşarlıq təşkil etdiyinə görə Xristianlar tərəfindən qəbul edilmir. Bu İncilin müsəlmanlar tərəfindən yazıldığı iddia edilir və Yeni Əhdə daxil edilməyib.

## Ədəbiyyat

1. Harman, Ö.F. (2000). Türk Diyanət Vəqfi İslam Ensiklopediyası. Cild 22. Güzel Sanatlar Matbaası A.Ş. Yenibosna/İstanbul, 585 s.
2. Aydın, M. Dinlər tarixinə giriş. İlahiyyat fakültəsi professoru, 177 s.
3. Əlizadə, A. (2016). Azərbaycanda Xristianlıq: Keçmişdən bu günə. Elm və Təhsil, 376 s.
4. Tümer, G., Küçük, A. (1993). Dinlər tarixi. Ankara: II Nəşr. PDF, 474 s.
5. Əlizadə, A. (2007). Xristianlıq: tarix və fəlsəfə (ilk çağlar). Bakı: “Əbilov, Zeynalov və oğulları” nəşriyatı, 172 s.
6. Zenkovskiy, V. (2010). Khristianskaya Filosofiya. Moskva. Institut russkoy tsivilizatsii, 1028 s.
7. Kruglov, A.A. (2015). Istoriya Religiy. Minsk. Belorusskiy Gosudarstvennyy Universitet, 407 s.
8. Küçük, A., Tümer, G., Küçük. M.A. (2010). Dinlərin tarixi. Maltepe/Ankara: Berikan nəşri, 652 s.
9. Dinlər Tarixi Ensiklopediyası. (1976). Cild 2. İstanbul. Gelişim Basım ve Yayım A.Ş., 480 s.
10. Nelson, T. (2000). The new testament: The new king James version. Bible. Istanbul. Zafer Printing House, 334 p.
11. Azərbaycan dilində Müqəddəs Kitab. (Tərcümə: Institute for Bible Translation). (2008). PDF. Müqəddəs Kitab şirkəti, 1458 s.
12. Gündüz, Ş. (2015). Xristianlıq İstanbul: İsam Yayınları, 196 s.
13. Aydın, M. (1995). Xristian mənbələrinə görə xristianlıq. Türkiyə Diyanət Vəqfi, 196 s.

Göndərilib: 16.01.2024 Qəbul edilib: 28.02.2024